# Bakalavr səviyyəsi üzrə "Azərbaycan dili" fənnin tədrisi prosesində İslam dəyərlərindən istifadə

**Sevinc Kərimova**
*ADPU-nun Pedaqoji təhsilin problemləri elmi-tədqiqat laboratoriyasının əməkdaşı*
**E-mail:** sevinc-kerimova@ bk.ru

**Rəyçilər:** ped.ü.e.d., prof. S. Həmidov,
ped.ü.f.d. Ə. Gərayev

**Açar sözlər:** din, müqəddəs kitab, islam, təhsil, intellekt, dəyər
**Ключевые слова:** религия, священная книга ислама, образование интеллекта, ценности
**Key words:** religion, a sacred book of Islam, education, intelligence, values

Təhsilin məzmunu dövlət tərəfindən müəyyənləşir və formasından asılı olmayaraq hər bir təhsil dünyəvi və fasiləsiz olmaqla yanası vətəndaşın, cəmiyyətin, dövlətin maraqlarını əks etdirir. Təhsil insanın bütün ömür boyu, davamlı olaraq, qırılmadan, ara verilmədən keçdiyi bir yoldur. Bu bəzən planlı, düşünülmüş, bəzən isə şəxsin özündən asılı olmadan qeyri-ixtiyari baş verir. Ölkəmizdə təhsil sistemi pərakəndə deyil, qəbul edilmiş qanunlar əsasında idarə edilir. Bu qanunlar isə milli-mənəvi, ümumbəşəri dəyərlər üzərində köklənən, əldə edilmiş və sınaqdan çıxarılmış təcrübələrə dayanan, dünyəvi yanaşmayla, beynəlxalq inkişafı izləyərək müasir təhsil sisteminin yararlılığını artırmağa xidmət edir.

Azərbaycan Respublikasında ümumi təhsilin Milli Kurikulumu çərçivə sənədində müəyyən edilmişdir ki, ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi vasitəsilə Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi keyfiyyətləri, mədəniyyəti, adət-ənənələri haqqında ilkin anlayışların yaradılması təmin olunmalıdır. Ana dilinin tədrisi milli maraqlar və dövlətçilik baxımından önəm daşıyır, onun tədrisi milli təfəkkürün formalaşmasında mühüm vasitə hesab olunur. Şagirdlərdə bu vərdiş və bacarıqların aşılanması vəzifəsi müəllimlərin üzərinə düşdüyü üçün Ali pedaqoji kadr hazırlığı prosesində Azərbaycan dilinin təlimi üzrə əldə ediləcək bilik və bacarıqların məzmunu və onun tədrisi mühüm rol oyanyır.

Təhsil sahəsində dövlət siyasətinin humanistlik, demokratiklik, bərabərlik, millilik və dünyəvilik, keyfiyyətlilik, fasiləsizlik, vəhdətlilik, daimillik, varislik, liberallaşma, inteqrasiya kimi prinsipləri hər bir təhsil pilləsinin məzmununda yer almalı, tədris prosesinin qurulmasında əsas təməl olmalıdır. Gənclərin təlim-tərbiyə prosesi çox ciddi, strateji əhəmiyyətli fəaliyyət sahəsi olduğu üçün elə qurulmalıdır ki, onların təhsili, elmi, düyagörüşü və mənəviyyatı milli və ümumbəşəri dəyərlərin vəhdəti zəminində formalaşsın. Təhsil verən hər bir pedaqoq, maarifləndirmə fəaliyyəti ilə məşğul olan hər bir şəxs və ya qurum fəaliyyətləri çərçivəsində yuxarıda adı çəkilən prinsipləri gözləməli və tətbiq etməlidir.

Bütün zamanlar boyu inanclar ictimai qanunların formalaşmasına və cəmiyyətin idarə sisteminə daha çox təsir edib. Əslində bu təsir yalnız dini inanc və şəriət qanunları ilə yekunlaşmır. Eyni zamanda dini baxışları rədd edən bir cox ideologiyalar, məsələn "Leninin ateist" fikirləri üzərində qurulan ictimai qanunlar da eyni məqsəd daşıyıb. Lakin hər zaman humanist dəyərlər üzərində qurulan, bütün bəşəriyyət üçün keçərli ola biləcək, təbiətdə və cəmiyyətdə hər bir canlının varlığını əhəmiyyətli sayaraq ona dəyər verən, haqq və ədaləti hər

şeydən öndə tutan inanc və prinsiplər, istər konstitutsiya, istərsə də şəriət qanunları ilə idarə olunan hər bir dövlət quruluşunun təməli olmalıdır.

Cəmiyyət üçün daima arzulanan və tələb edilən humanizm, bəşərilik, dünyəvilk, tolerantlıq kimi prinsip və qanunlar İslamın əsasını təşkil edir. "Qurani-Kərim"in isə insanlara çatdırdığı və tələb etdiyi prinsiplər inkişaf etmiş dünya ölkələrinin təməl qanunlar ilə üst-üstə düşür. Əgər bu gün təhsilimizdə İslami dəyərlərə söykənərək, "Qurani-Kərim"in yalnız şəriət qaydalarını əks etdirən kitab deyil, həqiqi mənada təbiət, cəmiyyət, ümumilkdə bütün kainat haqqında olduqca dəyərli elmi-fəlsəfi, ictimai biliklərin daşıyıcısı kimi yanaşsaq həqiqi mənada dövlətimizin təhsil qarşısında qoyduğu prinsiplərlə çıxış etmiş olarıq. İslam dəyərlərindən düzgün şəkildə, heç bir qurum və təriqət maraqlarını təbliğ və təziq etmədən gənclərə verilən təhsil və tərbiyədə istifadə olunmalıdır. Bunun üçün pedaqoqlar çalışmalıdırlar ki, "Qurani-Kərim"dən istifadə edən zaman onun haqqında yazılan, onu izah etməyə çalışan elmi-dini ədəbiyyatlardan öncə bu Şəmavi Kitabın özünü oxuyub dərk etsinlər.

Bu əsrarəngiz, unikal toplunu dərk etmək üçün insanın bəsirət gözü acıq olmalı, beyni və ürəyi ilə görməyi bacarmalıdır. "Qurani-Kərimi" o kəs dərk edə bilər ki, insana və insanlığa dəyər versin. Ətrafında olan hər şeyi, bütün kainatı sevməyi bacarsın və onu qorumağa çalışsın. Bu gün inkişaf etmiş ölkələr tərəfindən səsləndirilən bəşəriyyətin qorunması, təbiətin xilası kimi qlobal çağırışlar min illərdir ki, bu təkrarsız kitabın təməl prinsipidir.

"Yadına sal o zamanı ki, Rəbbin mələklərə dedi: həqiqətən mən yer üzündə bir canişin (Allahın oradakı nümayəndəsi, ya da oranın nəsli kəsilmiş qədim sakinlərinin canişini) qoyacağam." [Bəqərə 30] (A.Mehdiyev və D.Cəfərli).

Fizik, astronom, kimyaçı, riyaziyyatıçı, sosioloq, psixoloq və bir çox elm sahələrinin insanları zaman-zaman onları düşünməyə məcbur edən sualların cavabını burada tapa bilərlər. Dünya alimlərinin bir çoxu doğurdan da XX, XXI əsrin kəşfləri sayılan bir çox mühüm nəzəriyyələrin artıq 1400 il əvvəl "Quran"da əks olunduğunu qəbul edir, təsdiqləyirlər.

"Dağlara baxıb onları donmuş zənn edirsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedirlər. Bu, hər şeyi bacarıqla edən Allahın gördüyü işdir. Həqiqətən O, etdiyiniz əməllərdən xəbərdardır." ("Nəml" surəsi, 27/88)

Bu ayədə Yerin təkcə hərəkət etməsi deyil, onun dövr etdiyi istiqamət də təsvir olunur. 3500-4000 metr yüksəklikdəki bulud topalarının hərəkət istiqaməti həmişə qərbdən şərqə tərəfdir. Bunun əsas səbəbi Yerin dövr etdiyi istiqamətdir. Məlum olduğu kimi, Yer də qərbdən şərqə tərəf olmaqla dövr edir. Elmin yaxın dövrlərdə kəşf etdiyi bu həqiqət Quranda min dörd yüz il bundan əvvəl açıqlanıb.

İslam qanunlarının təzahür tapdığı "Qurani-Kərim"in səmavi kitab olması dəfələrlə elmi şəkildə təsdiqini tapmış və o bütün zamanlar boyu bəşəri, dünyəvi, elmi, ictimai əhəmiyyətini insan oğlunun idrakına həkk edilmişdir. Bu gün dünyada dini ayrılığı bəşəriyyət üçün faciə şəklinə gətirmiş qüvvələr mövcuddur ki, onlar "İslam" və "terroru" az qala sinonim söz kimi istifadə etməyə çalışırlar. Lakin alim və ya dindar olmadan belə sadəcə səma elçisi olan "Quran"dan müəyyən surə və ayələri oxuyaraq bunun nə qədər yanlış olduğunu dərk edə bilərlər. Bütün dünya dillərinə tərcümə edilmiş bu kitab öz səhifələrində bəşəriyyət üçün elə dəyərli kəlamlar əks etdirir ki, bunu görməyən və dərk etməyən elə səmavi kitabın özündə vurğulandığı kimi "kar və kordurlar". "İman gətirənlərdən (müsəlmanlardan), musavi (yəhudi), isəvi (xristian) və sabiilərdən Allaha, axirət gününə (sədaqətlə) inanıb yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. (Qiyamət günü) onların nə bir qorxusu olar, nə də onlar bir qəm-qüssə görərlər" [Bəqərə 62] (Ərəb dilindən tərcümə edənlər "Z.M.Bünyadov və V.M.Məmmədəliyev").

"O kəsləri ki, sənə göndərilənə (Qurana) və səndən əvvəl göndərilənlərə (Tövrat, İncil, Zəbur və s.) iman gətirir və axirətə də şəksiz inanırlar" [Bəqərə 4].

"Quran ondan öncə gəlmiş müqəddəs kitabları təsdiq edən bir həqiqətdir" [Bəqərə 90].

Kicik bir nümunə də olsa bunlar İslamın doğurdan da bəşəri dəyərlərə öncəlik verdiyini görürük. Bu kimi ayələr isə "Quran"- da olduqca çoxdur.

"(Ya Peyğəmbər!) İman gətirən və yaxşı işlər görən kimsələrə müjdə ver: onlar üçün (ağacları) altından çaylar axan cənnətlər (bağlar) vardır", "Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, müttəqi olasınız! (Allahdan qorxub pis əməllərdən çəkinəsiniz!)" [Bəqərə 21].

"O Allah ki, sizin üçün yer üzünü döşədi, göyü isə tavan yaratdı, göydən yağmur endirdi və onun vasitəsilə sizin üçün müxtəlif meyvələrdən ruzilər yetişdirdi" [Bəqərə 22].

"Şübhəsiz Allah təqvalılarla, yaxşı iş görənlərlədir" [Nəhl. 127] (Ağabala Musayev, Dürdanə Cəfəlrli, tərcümə )

Bu vaxta qədər "Qurani-Kərim" Ziya Bünyadov, Vasim Məmmədəliyev, Əlixan Musayev, Nəriman Qasımoğlu, bundan başqa Ağabal Mehdiyev və Dürdanə Cəfərli tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir. 114 surədən ibarət olan bu müqəddəs Kitab İslamın mahiyyətini özündə ehtva edir. Bu gün İslami dəyərlər "Qurani-Kərim"ə istinadən gənclərə savadlı şəkildə təqdim edilərsə gənclərin təlim-tərbiyəsinə, onlarda intellektual potensialın bəşəri dəyərlər zəmnində formalaşmasına müsbət təsiri ola bilər. "Bu, (Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə) heç bir şəkk-şübhə olmayan, müttəqilərə (Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə) doğru yolgöstərən Kitabdır" [Bəqərə 2].

**Məqalənin aktuallığı.** Günümüzdə gəncləri yad, xüsusi və məqsədli aparıla biləcək kütləvi təbliğatlardan qorumaq.

**Məqalənin elmi yeniliyi.** İslami dəyərlərin tədris prosesində istifadəsi dövlətimizin təhsil qarşısında qoydğu prinsiplər fonunda baş verməsi müəyyənləşdirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Gənclərin dünyagörüşündə, mənəviyyatında dini dəyərlər və anlayışlara tərəfsiz, mövhumatdan uzaq istiqamət verəcək.

## Ədəbiyyat

1. Z.M. Bünyadov və V.M. Məmmədəliyev. "Quran", tərcümə.
2. A.Mehdiyev və D.Cəfərli. Quran", tərcümə.
3. Osman Bilgən. Müxtəsər elmihal, 2008.
4. Həsənli H.S. İslam mədəniyyətində elm. Bakı: Elm və həyat, 1998.
5. Harun Yəhya. "Quran" möcüzələri. (çevirəni Elşad Musa). Bakı: Adiloğlu, 2012.
6. Kərimov Y.Ş. İslam dəyərləri işığında. Bakı: Nasir, 1999.

**С. Керимова**

## Использование исламских ценностей в процессе преподавания предмета «Азербайджанский язык» уровня бакалавриата

## Резюме

Священная книга ислама «Коран», которая всегда передается с помощью современных научных, логических, философских знаний, а также для привития добрых моральных ценностей.

**S.Karımova**

## Use of Islamic values in the process of teaching the "Azerbaijani language" subject in bachelor level


## Summary

Today, if Islamic values are presented to young people by referring to the Quran, the Islamic values may have a positive effect on the education of young people and the formation of intellectual potential in human values.


**Redaksiyaya daxil olub:** 10.01.2018